Aprelin 26-da Lənkəran Dövlət Universitetinin (LDU) rektoru vəzifəsinə təyin olunmuş Natiq İbrahimov universitetin kollektivinə təqdim edilib.

Natiq İbrahimovu kollektivə təqdim edən təhsil nazirinin müavini Firudin Qurbanov universitetin Elmi Şurasının üzvlərini yeni rektorun tərcümeyi-halı ilə tanış edib.

Son 5 il ərzində LDU-da tələbə kontigentinin bir neçə dəfə artdığını, maddi-texniki bazanın gücləndiyini, tədris prosesinin keyfiyyətcə yaxşılaşdığını qeyd edən nazir müavini sadalanan istiqamətlərdə görülən işləri yüksək dəyərləndirib. Firudin Qurbanov LDU-nun cənub regionunun inkişafında mühüm rol oynadığından da söz açıb. Nazir müavini bildirib ki, zamanın tələblərinə cavab verən savadlı, eyni zamanda vətənpərvər kadrların hazırlanması universitetlərin, professor-müəllim heyətinin əsas vəzifəsidir və ali təhsil ocaqları bundan sonrakı fəaliyyətlərində regionun tələbatını nəzərə almaqla kadr hazırlığına üstünlük verməlidirlər.

Natiq İbrahimov da öz növbəsində ona göstərilən etimadı doğruldacağını bildirib.